**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/4** **21 fevral 2024-cü il**

**“Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın keçirilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.2.24-cü “Auditor xidməti haqqında” Azərbaycan Respublikası qanununun imzalanmasının 30 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın keçirilməsi” bəndinə və Auditorlar Palatası sədrinin “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın keçirilməsi barədə” 2024-cü il 01 fevral tarixli 1/7 nömrəli sərəncamına uyğun olaraq konfransın keçirilməsi ilə əlaqdər məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2024-cü il 16-17 sentyabr tarixlərində yeni dövrün çağırışları və ölkə Prezidenti tərəfindən Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi zəminində şəffaflıq, hesabatlılıq və audit problemlərinin müzakirəsinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın keçirilməsi məqsədəmüvafiq hesab edilsin.
2. Təşkilat Komitəsinə tapşırılsın ki, Auditorlar Palatası sədrinin 2024-cü il 01 fevral tarixli 1/7 nömrəli sərəncamı ilə təsdiq edilmiş konfransın Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.
3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**